**Xalq qəzeti**.-2019.-10 avqust.-№174.-S.6.

## Zəngin mədəniyyətimizin möhtəşəm yadigarı: İçərişəhər

### Memarlıq abidələri

**Afət Sadıqoğlu**

***Qədimliklə müasirliyin memarlıq vəhdətində günü-gündən gözəlləşən paytaxtımız Bakının mərkəzində yerləşən, əsrlərdən qalma İçərişəhər öz yaddaşında ulu tarixi və zəngin mədəniyyəti yaşadır. Azərbaycan xalqının milli sərvəti və canlı tarixi olan İçərişəhər memarlığı və füsünkar gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur. 2000-ci ildə İçərişəhər YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Son illərdə Azərbaycan dövlətinin diqqət və qayğısı sayəsində qədim şəhərin tarixi-mədəni irsinin mühafizəsi, bərpası, qoruq ərazisində yerləşən abidələrin bədii-estetik görkəminin, təhlükəsizliyinin, funksional təyinatının və uzunömürlülüyünün təmin edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu gün qədim memarlıq incisi İçərişəhərin qorunub saxlanması və yüksək səviyyəyə gətirilməsi sahəsində hansı işlər görülür? Əməkdaşımızın bu və digər suallarına "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov cavab verir:***

– Əsgər müəllim, öncə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin məqsəd və vəzifələri haqqında məlumat verməyinizi istərdik.

– 2007-ci ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında yaradılan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ölkəmizin tarixi və mədəni incisi olan İçərişəhərin mühafizəsi məqsədilə təsis edildi. İdarənin yaradılmasının əsas məqsədi İçərişəhər ərazisindəki abidələrin və bütövlükdə, memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanmasının və gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən nadir idarəetmə sisteminin təşkil olunması idi.

Tarix və mədəniyyət abidələrinin qorunması, ərazi üçün müəyyən olunmuş rejimin saxlanmasının təmin edilməsi, İçərişəhər sakinlərinin həyat şəraitinin yüksəldilməsi, abidələrin tarix və mədəni cəhətdən öyrənilməsi, məqsədyönlü şəkildə istifadə olunmasının təşkili, abidələrin bərpası və toxunulmazlığının mühafizəsi, həmçinin qoruqların ərazisində turizmin inkişaf etdirilməsi kollektivimizin qarşısında duran vəzifələr sırasındadır.

– İçərişəhərin beynəlxalq standartlara uyğun qorunması istiqaməti üzrə aparılmış işlər və görülən tədbirlər nədən ibarətdir?

– İçərişəhərə və onun ərazisindəki tarix-memarlıq abidələrinin qorunub saxlanılmasına, konservasiyasına və abadlaşdırılmasına xüsusi dövlət qayğısı göstərilir, abidələr kompleksinin xarici təsirlərdən müdafiəsi üzrə uzunmüddətli strategiya çərçivəsində vahid siyasət həyata keçirilir. Nəzərdə tutulan fəaliyyətin tənzimlənməsi və planlaşdırılması üçün 2009-cu ildə Azərbaycan mütəxəssislərinin iştirakı ilə beynəlxalq ekspertlər qrupu tərəfindən hazırlanmış İçərişəhərin konservasiyası üzrə "Master plan" bu istiqamətdə atılan mühüm addımlardandır. Bu, İçərişəhərin baş planı olmaqla yanaşı, YUNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən hazırlanması tələb olunan sənədlərdən biridir.

"Master plan"ın əsas məqsədi bu memarlıq irsinin sistemli şəkildə konservasiyasının və gələcək inkişafının beynəlxalq prinsiplərə müvafiq olaraq planlaşdırılmasının təmin edilməsindən ibarətdir.

– Qoruq ərazisində tarixi irsimizə uyğun şəkildə təmir-bərpa və abadlaşdırma işlərinin davam etdirilməsi istiqamətində fəaliyyətiniz necədir?

– Nəzərinizə çatdırmaq istərdim ki, qoruq idarəsi bərpa və konservasiya işlərinin mükəmməl surətdə aparılması, həmçinin xarici təcrübənin öyrənilməsi məqsədilə Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkəti ilə sıx əməkdaşlıq edir.Bu baxımdan son illər ərzində Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, Məhəmməd məscidi, Bəylər məscidi, Cümə məscidi, Marionet teatrı, Qoşaqala divarları, Dördbucaqlı qala və s. kimi dünya, ölkə və yerli əhəmiyyətli tarixi-memarlıq abidələrində uğurla tamamlanmış çoxsaylı bərpa və konservasiya işləri fəaliyyətimizin bariz nümunəsidir.İdarənin hər il yenilənən təmir və bərpa proqramına əsasən qoruq ərazisində mövcud olan tarix və mədəniyyət abidələrinin qorunması, memarlıq-estetik görünüşünün və uzunömürlülüyünün təmin edilməsi üçün daimi olaraq müvafiq tədbirlər həyata keçirilir.

Onların sırasında müstəsna dərəcədə əhəmiyyətli olan işlərə nümunə olaraq Böyük Qala küçəsi 44, 46, 48, 50 ünvanlarında yerləşən, inşa tarixi XVII-XVIII əsrlərə aid edilən "Bakı xanlarının evi" kompleksinin bərpasını göstərə bilərik. Təqdirəlayiq hal odur ki, Bakı şəhərinin tarixində əhəmiyyətli mövqeyi olan Bakı xanları evi yaxın gələcəkdə əsaslı yenidənqurma işlərindən sonra muzeyə çevrilərək ilkin vəziyyətinə qaytarılacaqdır.

2016-cı ildə Böyük Qala küçəsi 50 ünvanında aşkar edilmiş, XVII əsrə məxsus yeraltı hamamın konservasiya işləri də hazırda həyata keçirilir. 2016 və 2017-ci illərdə arxeoloji qazıntı işləri nəticəsində hamamın əsas hissəsi torpaqdan və təsərrüfat tullantılarından təmizlənmiş, memarlıq quruluşu təyin olunmuşdur. 2018-ci ildə isə əsas etibarilə abidədə bərpa və konservasiya işləri aparılmışdır. 2019-cu ilin sonunda burada açıq səma altında arxeoloji muzey ekspozisiyasının fəaliyyət göstərməsi nəzərdə tutulur.

Hazırda nəinki İçərişəhər, bütövlükdə Azərbaycan tarixi üçün böyük dəyərə malik Qoşaqala qapılarında "Atelier Erich Pummer GmbH" şirkəti tərəfindən bərpa-konservasiya işləri aparılır. Layihəyə əsasən 2019-cu ildə Qoşaqala qapıları həm İçərişəhər (daxili), həmçinin Bayırşəhər (fasad) tərəfindən bərpa-konservasiya ediləcəkdir. Bərpa və konservasiya işləri öncə Qala divarlarının daxili hissəsindən başlanmışdır. Hazırda isə Qoşaqala qapılarının yanındakı iki bürc də daxil olmaqla, abidə xaricdən bərpa edilir. Layihənin cari ilin sonuna qədər başa çatması planlaşdırılır.

– Turistlərin İçərişəhərə cəlb olunması və onlara beynəlxalq standartlara cavab verən xidmətlərin göstərilməsi ilə əlaqədar hansı tədbirlər həyata keçirilir?

– Qədim dövrlərdən Bakı şəhərinin, hazırda isə bütövlükdə ölkəmizin tarixi mərkəzi rolunu oynayan İçərişəhər ölkəmizə səfər edən turistlərin mütləq surətdə ziyarət etdiyi məkandır.Təkcə paytaxtımızın qədim simvolu olan Qızqalasının mövcudluğu buna kifayət edir. Lakin biz zamanın tələbatına uyğun olaraq İçərişəhərin yalnız tarixi baxımdan deyil, eyni zamanda, daha rəngarəng, dinamik bir mərkəz kimi tanınması üçün çalışırıq. 2018-ci ilin mart ayında İçərişəhərdə ilk vahid Turist İnformasiya Mərkəzi öz işinə başlayıb. Şəhərimizin qonaqları İçərişəhərə daxil olduqları andan şəhərimizin tarixi, memarlığı, mədəniyyəti, eləcə də İçərişəhərin mədəni həyatı barədə istənilən məlumatı ala bilirlər. Burada bütün növ turizm xidmətlərindən faydalanaraq, həmçinin "Dastan" milli sənətkarlıq nümunələri brendinin məhsulları ilə də tanış olmaq mümkündür. Biz daim turizm sahəsi üzrə xidmətləri təkmilləşdirməyə və yeniləməyə çalışırıq. İstər təklif etdiyimiz bələdçi və elektromobil xidməti, istərsə də yeni turlar İçərişəhəri və onun zənginliyini qonaqlara daha da keyfiyyətli səviyyədə tanıtmağa xidmət edir.

İçərişəhərin və ümumilikdə ölkəmizin təşviqinə, mədəni turistik məkan olaraq qədim şəhərin tərəqqisinə nail olmaq üçün biz yaxın keçmişdə olduqca əhəmiyyətli layihələr ərsəyə gətirdik. Mən onların arasında xüsusi olaraq "Şirvanşahlar irsi dünya muzeylərində" adlı sərgini qeyd edə bilərəm. Ötən il Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə min illik tarixə məxsus olan, Azərbaycanın ən uzunömürlü dövləti olmuş Şirvanşahlara həsr etdiyimiz "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" adlı beynəlxalq elmi konfrans çərçivəsində təşkil edilən sərgi nəinki İçərişəhər, ümumilikdə Azərbaycan tarixi və mədəniyyəti üçün kifayət qədər böyük elmi və mədəni dəyərə malik olan layihə kimi qiymətləndirilməlidir. Çünki məhz bu sərgi sayəsində vətəndaşlarımız 500 ildən artıq Vətənimizin hüdudlarından kənara aparılmış misilsiz maddi-mədəniyyət nümunələri ilə tanış olmaq fürsəti qazandılar.

2019-cu ilin fevral ayında qədim şəhər ölkəmizdə ilk dəfə yaradılan Bakı fotoqrafiya evinin açılış mərasiminə evsahibliyi etdi. Fotoqrafiya sənətinin istər elmi bir dəlil, istərsə incəsənətin dəyərli bir sahəsi kimi əhəmiyyətini nəzərə olaraq belə bir mərkəzin yaradılmasına qərar verdik. İçərişəhərin tarixi bir məkan kimi köhnə fotoşəkillərdə əks olunan görünüşü bizi bu addımı atmağa ruhlandırdı və bir fotonun həmin anı əbədiləşdirdiyini xatırlatdı.

Eyni zamanda, dünyanın müxtəlif muzeyləri, yaradıcı mərkəzləri ilə əlaqələr quraraq, fəal əməkdaş qismində çıxış edirik. Bu məhsuldar tərəfdaşlığın bəhrəsi olaraq 2019-cu ilin fevral ayından etibarən Şirvanşahlar Sarayı Kompleksində dünyada mövcud olan ən unikal kolleksiyalardan biri–"İnkvizisiya – orta əsr işgəncə alətləri" sərgisi təqdim edilir. "ART Academia" yaradıcılıq mərkəzi, italyan və rus muzeyşünaslar, tarixçilərlə birlikdə ərsəyə gətirdiyimiz bu sərgi 70-dən çox cəza qurğusunu əhatə edərək, ziyarətçilərə klassik orta əsrlərdə qüvvədə olan inkvizisiya məhkəməsinin cəza üsulları haqqında ətraflı məlumat verir. Orijinal işgəncə alətlərinin nümayiş edildiyi sərgi ilk dəfədir ki, ölkəmizdə təqdim edilir və avqustun 18-dək fəaliyyət göstərəcəkdir.

– Qədim mədəniyyətə malik və dinamik inkişaf edən beynəlxalq səviyyəli turizm məkanı olan İçərişəhər bu gün hansı qayğılarla yaşayır?

– Turizmin inkişafı üçün olduqca əlverişli bir məkan olan İçərişəhər öz növbəsində, əlbəttə ki, yaşayış sahəsidir.Şəhərin mərkəzində, dəniz kənarında sanki şəhər içində kiçik bir aləm var. Əlbəttə ki, ölkəmizə səfər edən turistlər ilk öncə onun mərkəzini, tarixi simvollarını görməyə can atır. Eyni zamanda, bu məkanda illərlə əcdadları yaşayan insanlar var. Odur ki, biz həm əhalinin rahatlığının təşkil edilməsi, həmçinin xarici qonaqların məmnunluğunun təmin edilməsi üçün çalışırıq.

İçərişəhərdə ümumilikdə 500-dən çox yerli əhəmiyyətli binalar əsas olmaqla abidələr vardır. Onların təmir və bərpasının həyata keçirilməsi vaxt və vəsait tələb edir. Biz mümkün qədər onlara diqqət yetirməyə çalışır, təhlükəli vəziyyətdə olan binaları nəzarətdə saxlayırıq. Sakinlərin çətinlikləri də idarənin hər zaman diqqət mərkəzindədir. Tez-tez onlarla görüşlər keçirilir, problemləri dinlənilir, həll yolu tapılması istiqamətində addımlar atılır.